

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 148 (24.285)

17 avqust 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2005-ci ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1988-2004-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2023-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2023-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 16 avqust 2023-cü il*

*2023-cü il "Heydər Əliyev İli"dir*

## Ulu Öndər Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmə sisteminin formalaşdırılmasının yaradıcısıdır



*2023-cü ildə xalqımız Azərbaycanın ən yeni tarixinin yaradıcısı, müstəqil dövlətçiliyimizin memarı Heydər Əliyevin anadan olmasının 100 illiyini qeyd edir. Ulu Öndərimizin rəhbərliyi altında həyata keçirilən müdrik dövlət siyasəti nəticəsində dünya dövlətləri birliyində öz layiqli yerini tutan Azərbaycan Respublikasında mütərəqqi islahatlar aparılmaqla demokratik, hüquqi bir dövlət qurulmuşdur.*

Azərbaycan xalqının xoşbəxtliyi ondadır ki, dövlət müstəqilliyimizin çətin bir dövründə, Azərbaycan dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qaldığı bir vaxtda məhz belə bir dahi şəxsiyyət – Ulu Öndər Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı və liderlik missiyasını öz üzərinə götürdü. Bu tarixi missiyanı xalqın tələbi ilə yenidən öz üzərinə götürən əvəzolunmaz liderimizin aşağıdakı kəlamına nəzər yetirsək bir daha görərik ki, bu dahi insan öz xalqına, dövlətinə, millətinə nə qədər bağlı olmuşdur. ***"...Bizim böyük məsuliyyətimiz var. Biz müstəqil Azərbaycan dövləti yaradırıq və onu elə yaratmalıyıq ki, daim yaşasın, heç bir qüvvə onu heç vaxt heç bir yana əyə bilməsin, heç bir böyük dövlət gəlib bizim, Azərbaycan xalqının milli azadlığını, müstəqilliyini əlindən ala bilməsin. Bunun üçün də hər kəs bu müstəqilliyi qorumaqdan ötrü sadiq olmalı və öz şəxsi mənafeyini milli mənafedən aşağı tutmalıdır..."***

Müstəqil dövlətin demokratik inkişafı, möhkəmləndirilməsi, ölkədə əmin-amanlığın, sabitliyin və müstəqilliyin əbədi olması üçün demokratik Azərbaycan dövlətinin qurulması yeni bir strategiyanın həyata keçirilməsi ilə xarakterizə olunur. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş yeni Konstitusiyanın müstəqil Azərbaycan dövlətinin inkişafı tarixində əhəmiyyətli rolu oldu.

Konstitusiya müasir dövlət quruculuğu üçün tələb olunan bütün prinsipial məqamları özündə əks etdirir. Konstitusiya müddəalarının reallaşdırılması istiqamətində həyata keçirilən ən mühüm nailiyyətlərdən biri mülkiyyətin dövlət, bələdiyyə və xüsusi olmaqla, 3 formasının yaradılması və mülkiyyət hüquqlarının müdafiəsi ilə bağlı təminatlar olmuşdur. Məhz yeni Konstitusiyanın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə institutu – bələdiyyə orqanları yaradılmış və fəaliyyətə başlamışdır.

Konstitusiyanın qəbulundan sonra "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə maliyyəsinin əsasları haqqında" və "Bələdiyyə mülkiyyətinə əmlakın verilməsi haqqında" Azərbaycan Respublikası qanunları qəbul edilmişdir. Beləliklə, Azərbaycan Respublikası ərazisində ilk bələdiyyə seçkiləri keçirilənədək yerli özünüidarə ilə bağlı əsaslı hüquqi baza formalaşdırılmış, yerli özünüidarəetmə sahəsini tənzimləyən normativ-hüquqi aktlar qəbul edilmişdir.

Ümummilli Liderimiz Heydər Əliyev yerli özünüidarəetməni ölkəmizdə gedən demokratiya prosesinin mühüm bir sahəsi kimi dəyərləndirərək bələdiyyələrlə bağlı dövlət siyasətinin əsas istiqamətlərini də müəyyən etmiş, onun inkişafına xüsusi diqqət və qayğı göstərmişdir.

Vətəndaşların dövlət idarəetməsinin həyata keçirilməsinə cəlb edilməsi ilə əlaqədar yaranan münasibətlərin tənzimlənməsi məqsədilə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. İctimai iştirakçılığın əsas məqsədləri kimi yerli özünüidarəetmə orqanları ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı fəaliyyətin təşkili və qorunması müəyyən edilmişdir.

Ölkəmizdəki mühüm dəyişikliklər, ictimai həyatın tələbatları bələdiyyələri yeni məqsədlərə, səmərəli fəaliyyətə istiqamətləndirir. Həyata keçirilən mühüm Dövlət proqramlarında icra orqanları ilə bərabər bələdiyyələrin vəzifələrinin də müəyyən edilməsi onların fəallığının yüksəldilməsini şərtləndirir. Son illər bir çox qanunlara edilmiş dəyişikliklər bələdiyyə torpaqlarından səmərəli istifadə olunmasına xidmət edir və bələdiyyə institutunun cəmiyyətin idarə olunmasında rolunun artırılmasına hərtərəfli şərait yaradır.

Qeyd etmək lazımdır ki, ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və inkişafının təmin edilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Azərbaycan ədliyyəsinin inkişafına xüsusi diqqət göstərən Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra da bu sahə diqqətdə saxlanılmış, hüquq sistemində köklü dəyişikliklərə səbəb olan məhkəmə-hüquq islahatları uğurla həyata keçirilmişdir. Məhz onun yaratdığı və möhkəm əsaslar üzərində qurduğu Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət olaraq dünya birliyində öz layiqli yerini tutmuşdur. Ölkə Prezidentinin fərmanlarına əsasən Ədliyyə Nazirliyində yeni qurumlar, o cümlədən Bələdiyyələrlə iş mərkəzi yaradılmışdır. Ölkəmizdə yerli özünüidarəetmə institutunun inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin diqqət mərkəzində olmuş və həmişə qayğı göstərilmişdir. Bu qayğını Ulu Öndərimizin dediyi aşağıdakı fikirlərdən də görmək olar: ***"...Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratiya prosesinin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir. Biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu həm demoktatiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir".***

Elə bu qayğının nəticəsidir ki, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblərə və hamılıqla qəbul edilmiş standartlara uyğun təşkil edilməsinə kömək göstərmək məqsədilə "Bələdiyyələrin fəaliyyətinin təşkil edilməsinin bəzi məsələləri haqqında" ölkə Prezidenti tərəfindən 2000-ci il 8 fevral tarixdə Sərəncam imzalandı. Bu Sərəncam bələdiyyələrin işinin təşkili və onlara metodoloji yardım göstərilməsi sahəsində əsas hüquqi baza oldu. Sərəncama əsasən Ədliyyə Nazirliyinin nəzdində Bələdiyyələrlə iş və bələdiyyələrə metodoloji yardım mərkəzi yaradıldı. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 26 may tarixli Sərəncamı ilə mərkəz yenidən təşkil edilərək struktur bölmə kimi Ədliyyə Nazirliyinin aparatına daxil edilmişdir. Bununla mərkəzin dövlət orqanı kimi statusu əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ulu Öndər Heydər Əliyevin demokratiyanın inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasətin bir istiqaməti də yerli özünüidarəetmənin səmərəli təşkilinə yönəlmişdir. Bu siyasət bələdiyyələrin təşkili və formalaşması ilə yerli demokratiyanın inkişafına və yerli əhəmiyyətli problemlərin həllinə müsbət təsir etmişdir. Nəticədə, cəmiyyətimizdə əhalinin mənafeyinin qorunmasında bələdiyyələrin rolu ildən-ilə artır. Artıq muxtar respublikamızda da bir çox yerli əhəmiyyətli məsələlərin həllində bələdiyyələr yaxından iştirak edirlər.

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi, kiçik ədliyyə müşaviri***

## Ermənistanın növbəti təxribatının qarşısı alınıb

Avqustun 16-sı saat $9^{00}$ radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bu barədə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat verib.

Təxribatın qarşısının alınması məqsədilə bölmələrimiz tərəfindən açılan atəş nəticəsində kvadrokopter Ermənistan istiqamətində geri qayıtmağa məcbur edilib.

**Xəbərlər şöbəsi**

## "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib

*Naxçıvan Şəhər İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib.*

Heydər Məscid kompleksində keçirilən tədbirdə İcra Hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva və Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, bu gün Azərbaycan dünyada dini-mənəvi dəyərlərinə sadiq ölkə kimi İslam həmrəyliyinə verdiyi töhfə ilə tanınır. 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev dini ibadətgahlarımızın və abidələrimizin yenidən inşası istiqamətində mühüm addımlar atıb. Bu gün Azərbaycanda dini zəmində münaqişələrin olmaması insanların sərbəst olaraq öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması Ümummilli Lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasət yürütməsinin və



həmin siyasətin bu gün də uğurla davam etdirilməsinin nəticəsidir. Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu sahəni daim diqqət mərkəzində saxlayır. Buna bariz nümunə "Heydər Əliyev İli"ndə 15 İyun – Milli Qurtuluş Günündə Naxçıvan şəhərində istifadəyə verilən Heydər Məscid kompleksidir. Bu möhtəşəm dini-mədəni abidə Azərbaycan dövlətinin və xalqının öz milli və dini dəyərlərinə bağlı olduğunu bir daha sübut edir və Azərbaycan müsəlmanlarına, bütün İslam aləminə əvəzsiz bir hədiyyədir.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin qorunması və təbliği istiqamətindəki geniş fəaliyyətini xalqımız böyük minnətdarlıqla qarşılayır.

***"Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik"***, – deyən Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir. Dahi şəxsiyyətin fəaliyyətinin, gərgin əməyinin bəhrələrindən bu gün təkcə xalqımız yox, bütün region xalqları, türk xalqları, böyük İslam dünyası faydalanır. Elə buna görə də dahi şəxsiyyət Heydər Əliyevin adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır.

Sonra bələdçi Fatimə Səfərova tərəfindən Heydər Məscid kompleksi haqqında ətraflı məlumat verilib. Məsciddə Ulu Öndər Heydər Əliyev və şəhidlərimizin ruhuna dualar oxunub.

**Gülcamal TAHİROVA**

# "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi dünyanın ən müxtəlif ölkələrində yaşayan gənclərimizin Azərbaycanın müstəqillik və Şanlı Zəfər tarixi ilə bağlı daha zəngin bilik və məlumat alması üçün vəsilə oldu



*Qədim diyarımız Naxçıvan yenə bir möhtəşəm tədbirə ev sahibliyi funksiyasını yerinə yetirir. "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi artıq bir neçə gündür ki, işinə davam edir.*

Düşərgənin altıncı günü iştirakçılar Workshop: layihələrin hazırlanması və "Fundraising" prosesinin təşkil olunması ilə bağlı lazımi məlumatlar və bunun əsasında praktiki addımlar icra ediblər. "Azərbaycanın müstəqillik tarixi" mövzusunda IV panel müzakirələri keçirilib. Paneldə panelistlər AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, professor Solmaz Tohidinin,



İrəvan xanının Almaniyada yaşayan varisi Əmir Əli Sərdari İrəvaninin, tanınmış alman alimi, nəsimişünas Michael Hessin məruzələri dinlənilib.

Günün ikinci yarısında Vətən müharibəsinin Naxçıvandan olan iştirakçıları, şəhid ailələri ilə "Qarabağ fatehləri" mövzusunda görüş olub. Vətən müharibəsinin Naxçıvandan olan iştirakçıları, şəhid anaları və qazilərimiz bu görüşdən məmnun olduqlarını bildirdilər. Onlar belə tədbirlərin keçirilməsinin önəmindən bəhs edərək təşkilatçılara təşəkkür etdilər. Sonra iştirakçılar "Model United Nations simulyasiyası" (Dünyada silahlı münaqişələrin ətraf mühitə təsirləri və onların aradan qaldırılması üçün birgə səylər) haqqında məlumat alıblar. Gənclər üçün ayrılan asudə vaxtda "Bəxt üzüyü" filmi nümayiş edilib, iştirakçılar tərəfindən özfəaliyyət və komanda oyunları olub. Düşərgə panelistlərindən və iştirakçılarından aldığımız müsahibələri oxucularımıza təqdim edirik.



***Solmaz Tohidi – AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru:*** – Azərbaycan Milli Elmlər Akademiyasının təmsilçisi kimi, tarixçi-alim olaraq diasporun yay düşərgələrində gənclərimizə cümhuriyyət dövrü, Azərbaycan dövlətçiliyi tarixi, dövlət müstəqilliyimizin bizə qazandırdığı nailiyyətlər barədə mühazirələr oxumaqdan mənəvi zövq alıram. Çünki gənclərimiz bunu böyük maraqla qarşılayırlar.

Müsahibimiz deyir ki, yay düşərgəsindəki mühazirəmiz Azərbaycançılıq ideologiyası, ölkəmizin cümhuriyyət dövründən müasir müstəqil dövlətimizədək keçdiyi tarixi inkişaf yolunu əhatə edirdi. Həmçinin ideologiyamız, dövlətçiliyimiz və ayrı-ayrı tarixi dövrlərdə dövlətçiliyimizin yaradılması və qorunması üçün hansı proseslərdən keçdiyimizdən danışdıq. Tariximizi bilmək, dövlətçiliyimizə daha dərindən bələd olmaq gənclərimizə həmvətənlərinin keçmişinə sahiblənməyi öyrədir, həm də ölkəmizi xaricdə təmsil etmək haqqını qazandırır.

"İnsan öz Vətəninin tarixini biləndə əsl vətəndaş olur", – deyən müsahibimiz Azərbaycan dövlətinin keşməkeşli dövründən, Azərbaycan adının qazanılmasından və bu adı qoruyub-saxlamaq üçün çəkilən əziyyətlərdən, tarixi mərhələlərdən danışdığını da dilə gətirdi. Solmaz xanım vurğuladı ki, panel müzakirələrdə gənclərimizin siyasi tariximiz haqqında məlumatlılığı, fəal vətəndaşlıq mövqeyi bildirməsi sevindiricidir. Arzu edirəm ki, gənclərimiz dünyanın harasında olsalar, Azərbaycanımızı layiqincə təmsil etsin, tarixi həqiqətlərimizi dünya ictimaiyyətinə çatdırsınlar.



***Almaniyada yaşayan İrəvan xanlığının varisi Əmir Əli Sərdari İrəvani*** ilə söhbətimizdə bildirdi ki, burada gənc iştirakçılarla vaxt keçirmək çox maraqlıdır, bu təşəbbüsü yüksək qiymətləndirir və alqışlayır.

Müsahibimiz dedi ki, 2003-cü ildən Almaniyada yaşayır. İlk dəfə dədə-baba torpaqlarında ruhunun saflaşdığının, incələşdiyinin fərqinə varır. Sanki bir ulu qüvvə onu çəkib bu doğma torpaqlara gətirib. O, Naxçıvan şəhərinin qədimliyinə, tarixi-memarlıq abidələrinin çoxluğuna, qədim inanc yerlərinə, Duzdağ mədəninə, məğrur dağlarına, saf havasına, içməli suyuna, təmiz küçələrinə və ən əsası səmimi, istiürəkli, ünsiyyətcil, qonaqpərvər insanlarına heyran olmamaq mümkünsüzdür. Naxçıvanda olduğu müddətdə dahi şəxsiyyətlər haqqında məlumat əldə etmək istəyən, tarixi abidələri, qədim yaşayış məskənləri ən əsası da Xan Sarayını ziyarət etməyi arzulayan həmsöhbətimiz deyir ki, yeni məlumatlar əldə etmək fəaliyyətinə də müsbət mənada yansıyacaqdır. Əmir Əli Sərdari İrəvani bu tədbirə qonaq qismində dəvət olunmağın onda xoş təəssüratlar yaratdığını bildirdi.



***Cavid İsmayıl – Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdir müavini:*** – Doğma yurdum Naxçıvanda olmaq, əziz Vətənimizin bir parçası olan qədim diyarı dünyanın müxtəlif yerlərindən gələn, əslən azərbaycanlı olan, vətənini sevən gənclərimizə tanıtmaq qürurvericidir. Yurdumuzu gəzdikcə, onlara bu cənnət diyarı tərənnüm etdikcə fəxarət hissi keçiririk. Naxçıvanın Azərbaycanın müstəqilliyinin təməl daşının atıldığı yer olması, tarixinin qədimliyi bizə əsas verir ki, bu diyar haqqında ürəkdən bəhs edək. Düşərgə iştirakçıları artıq bir neçə gündür ki, bir çox müzakirələrdə, görüşlərdə iştirak edib, fəallıq göstəriblər. Onlar həvəslə gəldikləri yurd haqqında məlumat toplayır və paylaşırlar.



"Xarıbülbül" Dünya Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının təsisçisi və sədr müavini ***Muxtar Zamanov*** beş ildir ki, Polşada yaşayır. Culfa rayonunun Əbrəqunus kəndindəndir. O, Polşada Azərbaycanın mədəniyyətini dünyaya tanıtmaq, azərbaycanlı gənclərin yüksək potensialını dəyərləndirərək onların inkişafına dəstək göstərmək məqsədilə bu assosiasiyanı yaradıb. Müsahibimiz deyir ki, Azərbaycanımızın tanıdılması ilə yanaşı, xaricdə Azərbaycan lobbisinin yaradılması, Qarabağda baş verən hadisələrin dünya ictimaiyyətinə çatdırılması məsələsi də assosiasiyanın fəaliyyət dairəsinə daxildir. Pol-



şadakı həmyerlilərimiz müxtəlif beynəlxalq əhəmiyyətli əməkdaşlıqlar və layihələrlə öz əlaqələrini daha da genişləndiriblər. Onlar Azərbaycanımıza da töhfə verməyi hədəfləyirlər. Müsahibimiz düşərgədə iştirak etməklə yenidən ata-baba ocağı Naxçıvanda olmaqdan məmnunluğunu da diqqətimizə çatdırdı.



***Ameena Batayneh:*** – İordaniyadanam. Bu gözəl diyara ilk dəfə 15 il əvvəl gəlmişdim. Lakin budəfəki gəlişim mənim üçün unudulmaz oldu. Azərbaycan dilini ailəmdən öyrənmişəm və daha səlis danışa bilmək üçün davam edəcəyəm. Hazırda orada oxusam da, universitet təhsilimi Azərbaycanda almaq və bu diyarın gözəlliklərini lap yaxından görüb tanımaq istəyirəm.

Həmsöhbətimiz bildirir ki, İordaniyadakı Azərbaycan diasporu ilə aktiv əlaqələri var. Azərbaycan haqqında, xüsusilə ermənilərin xalqımıza qarşı törətdikləri kütləvi qırğınlar ilə bağlı geniş məlumat toplayıb, Azərbaycana qarşı həyata keçirilən bu ədalətsiz təxribatları dərindən bilmək və İordaniyadakı dostlarıma tanıtmaq istəyir. Müsahibimizin dediklərindən: – Naxçıvan, həqiqətən də, cənnətə bənzəyir. Ailəm hər zaman Azərbaycanın çox gözəl təbiətinin olduğunu desə də, açığı, belə təsəvvür etmirdim. Naxçıvan çox gözəldir. Həm gəzdiyimiz yerlər, həm də burada aparılan müzakirələrdən sonra Azərbaycan tarixi haqqında çox şey öyrəndim. Bir sözlə, burada hər şey mükəmməldir. Mən çox şadam ki, bu düşərgədə iştirak edirəm.



***Esraa Elnems:*** – Misirliyəm, 27 yaşım var və ilk dəfədir ki, Azərbaycana qonaq oluram. Bura yenidən gəlmək, Naxçıvan ilə yanaşı, digər bölgələri də yaxından tanımaq istəyirəm. Misirin Qahirə Universitetində Azərbaycan dilini öyrənmişəm. Məhz buna görədir ki, sizin dilinizdə yaxşı danışa bilirəm. Orada müəllimim Seymur Nəsirov idi. Məlumat üçün bildirim ki, Seymur müəllim Misirdəki Azərbaycan diasporunun rəhbəridir. "Şərq qapısı" qəzetinin vasitəsilə ona minnətdarlığımı bildirirəm. Həmçinin layihənin təşkilatçılara da təşəkkür edirəm ki, bizim üçün bu qədər imkanlar yaradılır. Vurğulamaq istəyirəm ki, diaspor təşkilatının səyi nəticəsində artıq Misirdə Azərbaycan dilinə böyük maraq vardır. Azərbaycan dili ilə yanaşı, tarixi, təbiəti, şəhərləri də mənim üçün çox maraqlıdır. Gələcək zamanlarda da bu diyara yenidən qonaq olub digər bölgələrini görmək, yaxından tanımaq istəyirəm.

Digər həmsöhbətimiz Kanadada yaşayan ***Huseyn Al Bayati*** oldu. Huseyn Gəncə şəhərində anadan olub, beş il sonra ailəsi ilə birlikdə Kanadaya köçüb: – Əvvəllər Nax-



çıvanda olmamağıma baxmayaraq, bura haqqında geniş təsəvvürə malik idim. Londondakı azərbaycanlılarla sıx münasibət qurduğum üçün bu haqda məlumatlı idim.



Huseyn deyir ki, Naxçıvan onun təsəvvür etdiyindən daha ecazkar gözəlliyə sahibdir. Yenidən Naxçıvana səfər etməyi arzulayan müsahibimiz şəhərimizin səliqə-sahmanından və təmizliyindən razılıqla danışdı.

Düşərgədə iştirak edən gənclər arasında azərbaycanlı olmasa da, Azərbaycana böyük sevgi ilə bağlı olan bir gənc diqqətimizi çəkdi.

Çin Xalq Respublikasının vətəndaşı olan ***Çenşu Kui*** Pekin Xarici Dillər Universitetində Azərbaycan dili və



ədəbiyyatı ixtisası üzrə təhsil alır. Müsahibimizin sözlərinə görə təhsil aldığı ixtisasın müəllimləri ilə yanaşı, orada yaşayan gənclər də Azərbaycan və onun şəhərləri haqqında çox bəhs ediblər. Müsahibimiz deyir: – Universitetə daxil olduğum ildən Azərbaycan mənim maraq dairəmdə idi. Dilini öyrəndiyim bu ölkəyə daha yaxından bələd olmağı arzulayırdım. Artıq ənənə halını almış bu düşərgə mənə Azərbaycanın şəhərlərini gəzmək, öyrənmək imkanı verdi. Naxçıvanda olmaq isə mənim üçün həyəcanverici təcrübədir. Gəzdiyimiz tarixi məkanlar, xüsusən də Batabatın gözəlliyi mənə dərindən təsir etdi. İndi hədəfimdə növbəti düşərgələr vasitəsilə Azərbaycanın digər bölgələrini gəzmək, tarixini öyrənmək və tanımaq var. Burada bizə dəstək olan hər kəsə minnətdarlığımı bildirirəm.



***Zülfüqar Rəhimli:*** – Ukrayna Respublikasının Odessa şəhərində ali təhsil almışam, neçə ildir ki, orada yaşayıram və bu gün burada Qətəri təmsil edirəm. Ölkəmizi layiqincə tanıtmaq ən böyük arzumdur. Düşünürəm ki, bu cənnətməkan ölkəni hər bir xarici vətəndaş tanımalıdır. Bu baxımdan bizim kimi xaricdə yaşayan azərbaycanlı gənclərin üzərinə böyük öhdəlik düşür. Azərbaycanın Lənkəran şəhərində doğulub, boya-başa çatmışam. Fəxr edirəm ki, azərbaycanlıyam. Bura mənim üçün çox əzizdir. Naxçıvana isə ilk dəfədir, gəlirəm və vurğulamalıyam ki, valeh olmamaq mümkün deyil. Saf havası, Batabat gölü, dağları, yaylaqları, şəhər mərkəzi hər biri ayrı-ayrılıqda möhtəşəmdir.

Digər həmsöhbətimiz Xaçmaz rayonundan olan ***Bəhruz Bayramov***dur. Bəhruz 23 yaşında Çinə təhsil almağa gedib.



Təhsilini bitirərək işləməyə başlayıb. Qeyd edək ki, Bəhruz artıq bir ildir ki, Vyetnamda yaşayır. Xian Jiatong Universitetində PhD təhsili almaqla yanaşı, Vyetnamda ingilis dili müəllimi kimi də fəaliyyət göstərir. Deyir ki, Batabat, Əshafi-kəhf və Naxçıvanın digər tarixi məkanları onun marağına səbəb olub, gələcəkdə yenidən Naxçıvanda olmağı arzulayır.

22 yaşlı müsahibimiz ***Elman Poorali*** 2 yaşınadək Təbrizdə yaşayıb, sonra ailəsi ilə birlikdə Türkiyənin İstanbul şəhərinə və oradan da Kanadaya köçüblər. Toronto Universitetində təhsil alan Elman deyir: – Ailəmizlə birlikdə olan zaman Azərbaycan dilində danışırıq. Ailəm hər zaman bizə ölkəmizdən danışır. Təbiəti, tarixi, şəhərləri, milli mətbəxindən fəxrlə bəhs edirlər. Lakin təəssüf hissi ilə bildirirəm ki, yaşadığım ölkədə kitablardan Azərbaycan haqqında çox az məlumat əldə etmək olur. İlk dəfə bura gəlsəm də, özümü illərlə burada yaşayan biri kimi hiss edirəm. İnsanlar çox mehriban, səmimidirlər. Buranı çox sevirəm və özümü evimdə hiss edirəm.



Digər həmsöhbətim ***Mariya İsmayılzadə*** Belarusdan gəlib. O, beş il Naxçıvan Muxtar Respublikasında yaşayıb.



İslam dinini qəbul edib. O, dedi: – Övladlarımın ata yurdunda olmaqdan məmnunam. Əvvəllər də burada olduğum üçün qəribçilik də hiss etmədim. Naxçıvan öz gözəlliyini, sadəliyini qoruyub saxlayıb. Bir çox tarixi yerləri gəzib-dolaşdıq. Panel iclaslarında dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri haqqında mövzuları dinlədik. Şəhid anaları və qazilərlə görüşdük. Onların Vətən müharibəsi haqqında danışdıqları xatirələrindən göründü ki, siz azərbaycanlılar necə vətənsevər bir xalqsınız.

**Ramiyyə ƏKBƏROVA**
**Məcid RƏŞADƏTOĞLU**
**Aidə İBRAHİMOVA**
**Aysel YUSİFZADƏ**
**Süryya QƏDİMƏLİYEVA**



Yazmasaq, olmur

# "Gəmiqaya" Tarix-Bədii Qoruğuna biganə münasibət bağışlanılmaz milli qəbahətdir

*Tarixi abidələrimizi Azərbaycanın qədim sivilizasiya mənbələri hesab etməklə yanaşı, əcdadlarımızın milli pasportu adlandırsaq, yanılmarıq. Bu aspektdən yanaşsaq, Ordubad rayonu ərazisindəki Parağaçay qəsəbəsindən və Tivi kəndindən şimal-şərqdə, Nəsirvaz kəndindən şərqdə, Kiçik Qafqaz dağ sisteminin ən hündür silsiləsi sayılan Zəngəzur sıra dağlarının mərkəzi hissəsində yerləşən Gəmiqaya yaylağının ilk insan məskəninə şahid olduğu danılmaz faktdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Gəmiqaya abidəsi haqqında demişdir:* ***"... Bu, bildiyimiz kimi, həm təbiətin böyük bir abidəsidir, eyni zamanda insan yaradıcılığının abidəsidir. Bu abidə Azərbaycanındır. Azərbaycanın tarixini əks etdirən abidədir".***

Gəmiqaya abidəsi ulularımızın əsrlərboyu inanc yeri olmuşdur. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 2001-ci il aprelin 26-da qəbul edilən "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamdan sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilərək çoxlu sayda məqalə və kitablar yazılıb, "Gəmiqaya" Tarix-Bədii Qoruğu yaradılıb. 2005-ci ildə Gəmiqayaya beynəlxalq ekspedisiya təşkil edilib, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanılıb.

2013-cü ildə "Gəmiqaya" Tarix-Bədii Qoruğu və muzey üçün bina istifadəyə verilib. İki yardımçı otaqdan və ekspozisiya zalından ibarət olan muzeyin fondunda 200-dən çox eksponat var. Muzeyə üzərində rəsmlər olan qaya daşları, Gəmiqayada aparılan tədqiqat işlərinə aid müxtəlif kitablar, qəzetlər, qayaüstü rəsmlərin fotoşəkilləri, eləcə də Naxçıvanın tarixinə aid elmi simpoziumların materialları toplanıb.

Gəmiqayadakı qayaüstü rəsmlərin yayılma arealını, sayını və digər məsələləri öyrənib dəqiqləşdirmək məqsədilə 2016-cı ilin avqust ayında AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mütəxəssislərindən ibarət "Gəmiqaya ekspedisiyası" yaradılaraq əraziyə ezam edilib. Ekspedisiya üzvləri "Gəmiqaya" Dövlət Tarix-Bədii Qoruq Muzeyinin əməkdaşları ilə birgə Qapıcıq zirvəsinin şimal-qərbindəki Neftli, Aşağı və Yuxarı Bacalar deyilən yerlərdən başlayaraq zirvənin qərbindəki göllər (Göygöl, Qazangöl), Qaranquş yaylağı, cənub-qərbindəki Nuh-Nəbi yurdu və Nazağa, Qapıcıq zirvəsinin cənubundakı Parağaçay dərəsində yerləşən "Qızgəlin çuxuru" adlanan yerədək 40 hektardan çox ərazidəki qayaüstü rəsmləri sistemli şəkildə öyrənərək qeydiyyata almışlar. Gəmiqaya yaylağının əsas yolu Nəsirvaz kəndindən olsa da, 2016-cı ildə çəkilmiş dairəvi yolla Parağaçay qəsəbəsindən Qızgəlin çuxuruna, oradan da asanlıqla Qaranquş yaylağına və "Gəmiqaya" Tarix-Bədii Muzeyinə gəlmək olar.



Gəmiqaya rəsmləri içərisində insan fiqurlarının müstəsna yeri var. İstər tək formada, istərsə də qrup halında çəkilmiş rəsmlərdə insanın ali varlıq olduğu, onun idarəediciliyi aydın şəkildə sezilməkdədir. Bu insanların maralı, dağ keçisini, atı və ya vəhşi öküzü ram edərək onların bəzilərini cilovlayıb aparmasının, eləcə də əlindəki çomaq və ya qamçı ilə heyvanları idarə etməsinin əks olunduğu təsvirlər özünü göstərməkdədir. Bəs necə olur ki, ali varlıq sayılan insan bir vaxtlar sivilizasiyanın olmadığı dönəmdə heyvanları ram edərək onların rəsmini tarixin məhək daşlarına döyərək həkk etmiş, indi isə həmin insanlar o abidələr diyarını öz otlaqlarına çevirmiş, min bir dərdin dərmanı olan çiçəkləri yem kimi istifadə etmək xatirinə tariximizin qəsdinə durmuşlar? Axı şüursuz, dilsiz-ağızsız canlını başa salmaq olarmı ki, bura qoruqdur, burada otlamaq olmaz? Əlbəttə, xeyr!



Min illərdir ki, inanc yerimizə çevrilən, əcdadlarımızın ilk qədəm qoyduğu yerləri şüursuz canlıların tapdağına çevirmək biz ali varlıqlar tərəfindən tariximizə, mədəniyyətimizə, əcdadlarımıza qarşı törədilən ən qatı cinayətdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görülməsinin zəruriliyi xüsusi vurğulanır. Sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi, turizm infrastrukturunun yaxşılaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Naxçıvan Muxtar Respublikasının turizm cəlbediciliyinin artırılması və tarixi-memarlıq abidələrinin beynəlxalq səviyyədə qorunması məqsədilə həmin abidələrin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması da həmin Dövlət Proqramının əsas məqsədlərindən və prioritet istiqamətlərindəndir.

Lakin, təəssüf ki, sivilizasiyanın beşiyi hesab olunan, eramızdan əvvəl IV-I minilliklərə aid qayaüstü təsvirlərin yerləşdiyi "Gəmiqaya" Tarix-Bədii Qoruğunun otlağa, daha doğrusu, mal-heyvan tapdağına çevrildiyinin bu gün də şahidi oluruq. Bu məlumatları şərh edərkən ağlımıza belə bir fikir gəldi ki, görəsən, qoruğun mühafizə zonası yaradılıbmı?

"Abidə qoruqlarının nümunəvi Əsasnaməsi"nin 2.1.10 bəndində deyilir: *"Qoruq ərazisində yerləşən tarix və mədəniyyət abidələrinin qorunmasını və toxunulmazlığını təmin edir, onlardan istifadə qaydalarını və qoruğun mühafizə rejminin pozulmasının qarşısının alınması və təqsirkar şəxslərin məsuliyyətə cəlb edilməsi ilə əlaqədar qanunvericiliklə müəyyən edilmiş qaydada zəruri tədbirlər görülür".*

Nəzərə alsaq ki, muxtar respublikamızda otlaq ərazisi yetərincə deyil və mal-heyvan sürüsü bu yaylaq ərazilərə nisbətdə çoxdur, o zaman problemin əsas mahiyyətinə varmış oluruq. Adətən, çobanlar sürüləri otlaq əraziyə yol xəritələri və yaxud da buraxılış vərəqəsilə daxil edir, orada ad, soyad və sürünün sayını göstərirlər. Normal halda 100 hektarlıq otlaq sahəsinə 10 min baş mal-qara düşdüyü, sənəddə də 10 min qeyd olunduğu halda, təəssüflər olsun ki, reallıqda bunun ikiqatına rast gəlinir. Bu halda qadağan olunmuş əraziyə keçdiyinə görə 20 min sürüsü olan bir sahibkara 500 manat məbləğində cərimə onun üçün yetərli inzibati cəza olmayacaq. Həmçinin o ərazidə bəbirlər, muflonlar, dağ keçiləri və digər yırtıcı qoruq heyvanları kifayət qədər yem tapmadıqda qoruğu tərk edərək üz tutacaq sərhəd bölgələrinə və nəticədə, ekoloji zərərin miqyası qarşısıalınmaz olacaq.

Adıçəkilən əsasnamənin 3.2 bəndində deyilir: *"Qoruğun ərazisində yerləşən elmi, tarixi-mədəniyyət əhəmiyyəti olan abidələr və təbii landşaft dövlət tərəfindən qorunur. Onların bədii-estetik görkəminin dəyişdirilməsi və onlar üçün təhlükə yarada biləcək hər hansı işlərin aparılması qadağandır".*

Dəniz səviyyəsindən 3500 metr hündürlükdə yerləşən, yeganə sivilizasiya mərkəzi olan bu qoruqda hələ qar altından təzəcə baş qaldırmış qarçiçəyi, lalə, süsən, bənövşə, qantəpər, nərgizgülü çiçək açmadan mal-heyvan tərəfindən tükənilərək bu əsrarəngiz təbiət möcüzəsini tapdağa çevirir. Həmin ot-alafın toxumu məhv edilərək tapdalanır, nəticədə, yerini quru xozanlığa verir. Qanunda deyilir ki, qoruğun əsas hüquq və məqsədləri ərazidə yerləşən tarix-mədəniyyət abidələrini, təbii landşaftı qoruyub saxlamaqdır.

Yenə həmin əsasnaməyə müraciət etməyə ehtiyac duyuruq. Bu dövlət sənədinin 6.5.2 maddəsində deyilir: *"Qoruq mühafizələri qoruq abidələrinin toxunulmazlığının təmin edilməsi üçün müxtəlif təsvirlər və yazıların yanmasına, razılıq olmadan qoruğun sərhədləri daxilində abidələrin istifadə olunmasına, ərazidə od qalanmasına, müxtəlif məclislərin keçirilməsinə yol verməməli, üzərində tarixi yazılar, ornament, relyef və qayaüstü təsvirlər olan daşlara xüsusi diqqət yetirməli, abidədə olan dəyişikliklər, dağıntı və söküntülər, habelə ondan qanunsuz istifadə olunması barədə rəhbərliyə və müvafiq orqanlara xəbər verməli, abidənin mühafizəsi zonasında müxtəlif tikinti, torpaq və kənd təsərrüfatı, icazəsiz arxeoloji qazıntı işlərinin aparılması, ərazidə yeraltı, yerüstü partlayış işlərinə, abidələrin özbaşına ölçülməsinə, onlarda olan bədii təsvirlərin surətinin çıxarılmasına icazə verməməlidir".*

Azərbaycan Respublikası Prezidenti imzaladığı fərman və sərəncamlarda, müsahibələrində ölkədə ekoturizmin inkişaf etdirilməsi, standartlara cavab verən turizmin formalaşdırılması, regionlarda turizm fəaliyyətinin stimullaşdırılması, yeni turizm marşrutlarının formalaşdırılmasına diqqət çəkir, ekoturizmin inkişafının əhəmiyyətini vurğulayır, bölgəyə turist cəlb edilməsinə müsbət münasibət bildirir. "Abidə qoruqlarının nümunəvi Əsasnaməsi"nin 2.1.9 bəndinə baxaq: *"Qoruq ərazisində turizmin inkişaf etdirilməsini, turist marşrutlarının müəyyən edilməsini və bununla bağlı infrastrukturun yaradılmasını təşkil edir".* İndi düşünək ki, həmin qoruğa xarici bir turist gəlib. Min bir sözlə nağıllar aləminə gəldiyini, bənzərsiz flora ilə tanış olacağını, dünyanın beşiyindən ətrafa boylanacağını düşünən turist həmin ərazidə gül-çiçək, yaşıllıq yox, quru təbiətlə qarşılaşacaq və belə təəssüratla geri dönəcək ki, milli tariximiz və bu qoruğun təbii zənginlikləri haqqında məlumatlar saxtalaşdırılıb.

*Gəlin hər birimiz vicdanımızın səsinə qulaq asaraq öz milli-mənəvi dəyərlərimizə sahib çıxaq, bu iş könül işi deyil, bu iş ürək işi deyil, bu iş vicdan işidir, milli vətəndaşlıq borcumuzdur. Vicdanımıza yelkən açaraq zamanın ağuşunda mübhəm sevgi ilə öz milli kimliyimizə dönək, tarixin saralmış səhifələrində gəzişərək milli kimliyimizə qayıdaq, ələ-ələ verərək bizim olanlara sahib çıxaq!*

✍ **Fariz ƏHMƏDOV**

# Mineral su bulaqlarının öyrənilməsi onları düzgün qiymətləndirməyə imkan verir

*Naxçıvan Azərbaycanın mineral sularının çoxluğu və müalicəvi xüsusiyyətlərinə görə diqqətçəkən regionlarından biridir. Ölkəmizin mineral su ehtiyatının 60 faizinin toplandığı muxtar respublikamızda 250-dən artıq belə su mənbəyi qeydə alınıb.*

Diyarımızın Ordubad, Şahbuz və digər bölgələrində çayların vadilərində və yaxınlığındakı bulaqların kimyəvi tərkibi müxtəlif olub təsərrüfatda, içməli su təchizatında, həmçinin müalicə məqsədilə istifadə edilir. İnsanlar bulaqların şəfa gücünə görə onlara qotur suyu, mədə suyu, dəri suyu və sair adlar veriblər. Mineral su bulaqlarının və onların formalaşdığı mühitin öyrənilməsinə çoxdan başlanılıb. Araşdırmalara əsasən Naxçıvanda mineral suların 98 faizi karbon qazlı olub, hidrokarbonat tipli sulara aid edilir.

Mineral su mənbələrinin toplandığı bölgələrimizdən birində – Ordubadda, təqribən, 30-a yaxın mineral su bulağı qeydə alınıb. Bu bulaqlar, əsasən, Biləv, Əlahi, Gənzə, Kotam, Nəsirvaz, Nüsnüs, Parağa, Pəzməri, Tivi kəndlərinin ərazisində olub məşhur "Narzan"dan geri qalmır, digərləri isə müalicə qabiliyyətinə görə daha üstün hesab edilir. Onların bir çoxu bu gün də təbiətin qoynuna axmaqda davam edir. Belə bulaqlardan biri də Biləv mineral su bulağıdır. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, kimya üzrə fəlsəfə doktoru, dosent ***Fizzə Məmmədova*** bulağın kimyəvi tərkibi ilə bağlı məlumat verərək bildirdi ki, bu bulaq Ordubad rayonunun Biləv kəndindən yuxarıda yerləşir, bir neçə çıxışı var. Suyu hidrokarbonatlı, natrium-kalsiumlu, PH-ı 5,9; temperaturu 18; debiti 20000 l/gündür. Tərkibində $CO_2$ olduğu üçün xoş tamlıdır. "Darasun" tiplidir, tərkibində azacıq bor olduğu üçün müalicəvi xassələri var, mədə-bağırsaq və nəfəs yollarının xəstəliklərinə yaxşı təsir göstərir, minerallığı 2,1 mq/l-dir.



Muxtar respublika ərazisində olan mineral bulaqlarla bağlı yeni araşdırmalar apardıqlarını deyən Fizzə xanım Şahbuz rayonunda Qoturlu suyu, Culfanın Bəyəhməd kəndindəki mineral bulağı öyrənib pasportlaşdırmaq istədiklərini bildirdi: – Qoturlu suyundan yerli sakinlər dəri xəstəliklərində istifadə edirlər. Bəyəhməd mineral bulağı isə karbon qazlı və aşağı minerallığa malik olduğundan "Sirab" suyunun analoqudur, içmək üçün yararlıdır. 10-a qədər mineral su var ki, hələ tam öyrənilməyib, onları öyrənmək üçün layihə hazırlayacağıq.

Fizzə xanım qeyd etdi ki, Şahbuz rayonunun Gömür kəndi ərazisindəki Gömür mineral su nümunəsinin tərkibi dünya praktikasında qəbul edilmiş üsullar üzrə makrokomponentlərə görə analiz olunub. Tərkibində kalsium, maqnezium, xlorid, hidrokarbonat, sulfat ionlarının çoxluq təşkil etdiyi suyun minerallaşma dərəcəsi 360-370 mq/l, PH (turşuluq göstəricisi) 6, 52, temperaturu $20^0$C-dir. Analiz edilən suda xlorid ionlarının miqdarı (0,37 mq-ekv/l) zəif şorluq mühitini, suyun codluğu isə (4,12 mq-ekv/l) onun şirin sular qrupuna aid olduğunu praktiki olaraq təsdiq edir. Suda sulfat ionlarının varlığı və hidrogen-sulfid ionlarının cüzi miqdarı mineral suyun tamına və keyfiyyətinə təsir göstərir. Bu amil və suyun fiziki göstəriciləri – tamı, uzun müddət saxlandıqda çöküntü verməsi və tərkibində gözlə görünən bulanıq maddələrin olması təqdim edilən suyun içmək üçün deyil, müalicəvi məqsədlər üçün yararlılığını təsdiq edir.

Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" nda qeyd edilir ki, Naxçıvan Muxtar Respublikasının duz yataqları, mineral suları, tarixi və dini abidələrindən, ekoturizm üçün təbii əlverişli şəraitindən yararlanmaqla regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi məqsədilə bu sahənin inkişafına yönəlmiş tədbirlər görüləcəkdir. Naxçıvan torpağının nemətləri, sərvətləri içərisində xüsusi yer tutan mineral bulaqların öyrənilməsi, üzə çıxarılması gələcəkdə muxtar respublika iqtisadiyyatına töhfə verə bilər.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

Təhsil millətin gələcəyidir

# Beynəlxalq uğura addım-addım:

## Naxçıvan Dövlət Universitetinin məzunları xaricdə magistratura təhsili alacaqlar

*Ölkəmizin ən nüfuzlu və prestijli ali təhsil müəssisələrindən olan Naxçıvan Dövlət Universiteti uğurlu təhsil strategiyası ilə ölkə hüdudlarından kənarda da tanınır. Qeyd edək ki, ali təhsil müəssisəsinin beynəlxalq əməkdaşlıqları, təhsilin inkişafı ilə bağlı atılan gələcək yönümlü addımları, beynəlxalq reytinq cədvəllərində yer tutması ilə son illərdə ölkənin elmi platformasında öz adını və şöhrətini göstərməkdədir. Universitetin yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində əldə etdiyi uğurlar isə xüsusi vurğulanmalı, o da qeyd olunmalıdır ki, bu işdə tələbələrin də fəaliyyəti təqdirəlayiqdir. Belə ki, Naxçıvan Dövlət Universitetinin Təcrübə və məzunlarla iş bölməsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru Aynurə Seyidovanın sözlərinə görə 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin 19 məzunu müxtəlif xarici ölkələrdə magistratura pilləsi üzrə təhsil alacaq. Sizi onlardan bir neçəsi ilə tanış etmək istərdik.*

İlk həmsöhbətimiz Biologiya müəllimliyi ixtisası üzrə məzun ***İlahə Abdullayeva***dır. O, Almaniyanın Justus-Liebig Universitetinin Biologiya ixtisasının magistratura səviyyəsi üzrə təhsil alacaq. İlahə xanım öz sevincini bizimlə belə bölüşdü: "Xaricdə təhsil almaq mənim məktəb zamanlarımdan xəyalım idi. 3-cü kursda oxuyarkən xəyalımı gerçəkləşdirmək üçün addım atmağın vaxtı olduğunu düşündüm, onlayn şəkildə IELTS hazırlıqlarına başladım və 6,5 bal nəticə əldə etdim. Yolumu öz ixtisasım üzrə davam etməyimin başlıca səbəbini universitetimizdə ixtisas müəllimlərimin biologiya fənninə qarşı yaratdığı maraq və sevgidə görürəm. Eləcə də universitetimizdə görülən işlər, yaradılan xüsusi imkanlar həvəsimi daha da artırdı. Beləliklə, Almaniyanın Justus-Liebig Universitetində magistr təhsili almaq hüququ qazandım. Xoşbəxtəm ki, Naxçıvan Dövlət Universitetindən məzun olmuşam. Universitet ailəsi mənə və xaricdə təhsil almaq istəyən digər tələbələrə öz dəstək və qayğısını əsirgəmir, bizim üçün geniş imkanlar yaradır. Məqsədim əldə etdiyim biliklərlə gələcəkdə öz xalqım üçün layiqincə çalışmaq, ölkəm üçün layiqli bir vətəndaş olmaqdır.



Türkiyənin Dokuz Eylül Universitetinin İşletme (ingiliscə) ixtisasının magistratura pilləsinə qəbul olan ***Qoşqar Qocayev*** universitetin Tərcümə (ingilis-Azərbaycan dilləri) ixtisasının məzunudur. O deyir: "Xaricdə təhsil alaraq dünya təcrübəsinə yiyələnmək istəyirdim. Buna nail oldum və yeni tədris ilinin başlanmasını həyəcanla gözləyirəm. Bu uğurumun başlıca səbəblərindən biri universitetin və fakültəmizin tələbkar, innovativ, bir o qədər də tələbə dostu olan müəllimləridir. Magistratura təhsili alacağım müddətdə Naxçıvan şəhərində olduğu kimi, xaricdə də bələdçilik edərək, eyni zamanda da proqramlaşdırma, IT istiqamətində kurslara yazılıb karyeramı bu istiqamətdə qurmağı planlayıram".



***Mircəfər Seyidov*** da əldə etdiyi nəticələr ilə fərqlənən gənclərdəndir. Universitetin Mühasibat uçotu və audit ixtisasının məzunu olan Mircəfər Macarıstanın Budapeşt Corvinus Universitetinin Maliyyə ixtisasının magistraturasına qəbul olub. Müsahibimiz deyir ki, o, Erasmus Plusun AFEPA adlı proqramına İtaliya, İsveç, Almaniya, Belçika olmaqla, 4 ölkədə magistratura səviyyəsi üzrə seçim etmək şansı qazanıb. Seçimi isə Macarıstanın Corvinus Universitetində Maliyyə ixtisası olub: "Mən Hökumətlərarası Təqaüd Proqramının (HTP) tam təqaüdlü qalibi olmuşam və bütün təhsil xərclərim HTP tərəfindən qarşılanacaq. Düşünürəm ki, xaricdə təhsil almaq istər dünyagörüşü baxımından, istərsə də ixtisaslı kadr olmaq yolunda mənə böyük töhfə verəcəkdir. Mən 2 illik təhsilimdən sonra ölkəyə qayıdaraq fəaliyyətimi davam etdirməklə yanaşı, gələcəyin maliyyəçilərinin yetişdirilməsi prosesində də yaxından iştirak etmək istəyirəm. Buna görə də, doğma universitetimizin pedaqoqu olmaq da gələcək planlarım arasındadır".



Universitetin Beynəlxalq münasibətlər ixtisasının məzunu olan ***Gülşən Salmanova*** Almaniya, Avstriya, Belçika, İtaliya və Polşanın universitetlərinə qəbul şansı qazanan gənclərimizdəndir. Onun seçimi Belçikanın Ghent Universiteti Konfliktologiya və inkişaf tədqiqatları ixtisası olmuşdur. Gülşən xanım xaricdə magistr təhsili almağın akademik karyerası üçün çox vacib olduğunu, magistr təhsilini bitirdikdən sonra ölkəmizə qayıdıb çalışmaq istədiyini bildirir. Müsahibimiz düşünür ki, münaqişələrin həlli ilə bağlı bir sahədə peşəkarlaşacağı üçün bölgəmizdəki siyasi stabilliyin qorunmasına öz töhfələrini verə biləcək.



İtaliyanın Sapienza Universitetinin Avropa İttifaqı hüququ və iqtisadiyyatı ixtisası üzrə magistraturaya qəbul olan ***Qafar Qənbərli*** universitetin Hüquqşünaslıq ixtisasının məzunudur. Müsahibimiz deyir: "Xaricdə təhsilin bir çox üstünlükləri var. Bu həm şəxsi inkişaf, həm də gələcək vəkillik karyerası üçün uğurlu başlanğıcdır. Həmçinin fərqli ölkələrdən tələbələrlə birgə təhsil almaq, fərqli mədəniyyətləri tanımaq və inteqrasiya etmək üçün əla fürsətdir".



*Hər birimizi qürurlandıran gənclərimizin əldə etdikləri və gələcəkdə qazanacağı bütün nailiyyətlər sübut edir ki, onlar Ulu Öndər Heydər Əliyevin **"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir"** ideyasını məsuliyyətlə dərk etmiş və mənimsəmişlər. Söhbətlərindən də göründüyü kimi, onların hər biri Vətənə layiqli vətəndaş və ixtisaslaşmış kadr olmaq yolunda mübarizə aparır. Əminik ki, onlar və gələcəkdə bu amalla yola çıxan gənclərimiz Azərbaycanımızın inkişafına layiqli xidmətləri ilə öz töhfələrini verəcəklər.*

**Aysel YUSİFZADƏ**

## Duzdağ Fizioterapiya Mərkəzinin beynəlxalq EUROHEALTH SPA sertifikatı ilə təmin olunması üçün yoxlamalar aparılır



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Duzdağ Fizioterapiya Mərkəzinin beynəlxalq EUROHEALTH SPA sertifikatı ilə təmin olunması üçün Eurogap Beynəlxalq Sertifikatlaşdırma İnstitutunun Fransa ofisinə müraciəti əsasında institutun eksperti Emrah Kızqın dünən Duzdağ Fizioterapiya Mərkəzində yoxlamalara (araşdırmalara) başlayıb. Yoxlamaların nəticələrinə əsasən mərkəz beynəlxalq sertifikatla təmin olunacaq.



Qeyd edək ki, Eurogap Beynəlxalq Sertifikatlaşdırma İnstitutu LİMİTED ŞİRKƏTİ beynəlxalq standartlar çərçivəsində mal, iş və xidmətlərin sertifikatlaşdırılması istiqamətində fəaliyyət göstərir. İnstitut müraciət edilən mal və xidmətin beynəlxalq standartlara uyğunluğu istiqamətində yoxlamalar planlayır. Peşəkar ekspertlər tərəfindən müştərinin xidmət və ya məhsulunun aidiyyətlərə uyğunluğu yoxlanılır. Yoxlamalar nəticəsində çatışmazlıqlar aşkarlanır və uyğunsuzluqların aradan qaldırılması nəticəsində xidmət və ya məhsul sertifikatlaşdırılır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Məhkumların hüquqlarının müdafiəsi diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının birgə təşkilatçılığı ilə Penitensiar Xidmətin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində məhkumlar üçün hüquqi maarifləndirmə tədbiri keçirilib.

Xidmətin Təşkilat-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə kapitanı Nizami Nəcəfov tədbiri giriş sözü ilə açaraq tədbirin keçirilməsinin məqsəd və əhəmiyyətindən danışıb.

Sonra Müvəkkil Aparatının İnsan hüquqlarının müdafiəsi şöbəsinin müdiri Vahidə Bayramova və baş məsləhətçisi Həsən Həsənov çıxış ediblər. Çıxışlarda məhkumlara cəzaların icrası və çəkilməsi zamanı onların ən mühüm hüquqi təminatlarından biri olan qohumları, vəkilləri və digər şəxslərlə görüşləri, habelə telefon danışıqları aparılmasına dair qanunvericilikdə müəyyən olunmuş qaydalar barədə məlumat verilib.

Sonda mövzu ilə bağlı məhkumları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Nəqliyyat vasitəsindən gümüş aşkar edilib



Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin "Şahtaxtı" gömrük postunda Azərbaycan Respublikasının ərazisindən tranzit keçməklə İrandan Türkiyəyə pambıq lifinin tullantıları yükü aparan nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib.

Yoxlama zamanı yük-nəqliyyat vasitəsinin qoşqusunun ön hissələrindəki boşluqlardan 11 ədəd külçə formasında, üzəri folqa ilə örtülmüş, 14 bükümdə isə qırıntı halında olmaqla, 990 əyarlı, ümumilikdə, çəkisi 36,946 kiloqram, dəyəri 41436 Azərbaycan manatı olan gümüş aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırmalar davam etdirilir.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

## Bitki tərkibli şəfalı araqlar

Keçmiş zamanlardan, tibbin bu qədər inkişaf etmədiyi vaxtlardan müalicə və sağlamlıq üçün xeyirli olan müxtəlif təbii tərkibli dərman vasitələri hazırlanıb. Təbiətin bizə bəxş etdiyi bu nemətlər, bitkilər "türkəçarə" üsulu ilə bir çox xəstəliklərin sağalmasında və qarşısının alınmasında misilsiz rol oynayıb. Bəzi səbəblər üzündən bu vasitələrin bir çoxu yaddan çıxmaq üzrə olsa da, son illərdə həmin vasitələrdən istifadəyə qayıdış təqdir olunur. Buna təbii, bitki tərkibli, ev şəraitində hazırlanan araqlar nümunə göstərilə bilər. Naxçıvanın bir sıra rayonlarında bitki tərkibli, müalicəvi xüsusiyyətlərə malik araq hazırlanması ənənələrinə rast gəlinir. Qeyd edək ki, müxtəlif çiçək, gül, meyvə-tərəvəz və otların distilləsindən hazırlanmış dərman və ədviyyat cövhərləri təbii şəfaverici araq adlandırılır. Təbii nanə, cəfəri, şahtərə, bebniş (digər adı ilə pişpişə), boymadərən, batrınc, xiyar, zoğal, tut, şaftalı, ərik, gül və gül köşəyindən hazırlanan araqlar da bu cür vasitələrdəndir. Onlardan biri də nanə arağıdır. Daha məşhur sayılan nanə arağının hazırlanması ilə bu gün də məşğul olan insanlar var. Adına "araq" deyilməsinə baxmayaraq, bu tipli məhlullar spirtli içki kimi istifadə olunmur, orqanizmdə gedən proseslərin tənzimlənməsindən tutmuş şəkərli diabet, böyrək, ürək və bir çox müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir.





Ordubad şəhər sakini ***Azadə Mirzəli*** ilə söhbətimizdə də müalicəvi əhəmiyyətli bitki cövhərlərindən danışdıq. Müsahibimin sözlərinə görə, əhali arasında hazırda ən çox tələbat gülab və nanə arağınadır. Təbii ki, bunların tərkibində alkoqol yoxdur. Bunlardan qızılgül ləçəklərindən hazırlanan gülab ölkəmizin bir çox yerlərində, yas mərasimlərində istifadə olunsa da, profilaktik təsirə də malikdir. Nanə arağı daha çox türkəçarə vasitəsi kimi əhəmiyyət daşıyır. El arasında nanə arağının sancı, köp, qarın ağrısı, mədə ağrısı, ürəkbulanma zamanı çox müsbət təsir göstərdiyi deyilir. Həmçinin baş və miqren ağrılarını aradan qaldırır, yuxarı tənəffüs yollarını iltihabdan təmizləyir, həzmi rahatlaşdırır, iştahanı açır, stress əleyhinə müsbət təsir göstərir. Həmçinin toksintəmizləyici, ödqovucu, qızdırmasalıcı, iltihab əleyhinə təsirə malikdir.

Hazırlanmasına gəldikdə həmsöhbətim bildirir ki, ağır və uzun olan bu proses 7-8 saat çəkir. İndi bir çoxları nanə arağı satmaq üçün onu kustar və ya digər yeni metodlarla çəkməyə çalışsa da, əsl bitki cövhərlərinin hazırlanması əziyyətli, zəhmətli və çətindir. Təmizlənən 1 kiloqram yabanı nanə yarpağı, təxminən, 5 litr suda qaynadılır. Nanə ilə birgə su qaynayaraq buxara çevrilir. Və nəticədə, nanə arağı əldə olunur. Distillə edilmiş bitki suyu daha sonra bir neçə gün qaranlıq bir otaqda istehlaka hazır olana qədər saxlanılır. Həmsöhbətim onu da diqqətimizə çatdırır ki, nanə arağı qədim zamanlardan hazırlanan alkoqolsuz yabanı nanə distillatıdır. Təmiz, yaşıl rəngli, təravətli və çox ətirli mayedir.

El arasında daha çox tələbat olan digər bir bitki tərkibli cövhər isə xüsusi qızılgül növünün ləçəklərindən çəkilən gülabdır. Əsasən, dini ayinlərin icrası zamanı və yas mərasimlərində və bəzi milli təamların, şərbətlərin hazırlanmasında istifadə edilir. Gülab ürək və mədənin möhkəmlənməsinə səbəb olur, stresi aradan qaldırır, arterial təzyiqi aşağı salır və kosmetik vasitə kimi üz dərisinə qulluq zamanı istifadə edilir. Gülab iylənmək diqqətin toplanmasına köməklik göstərir.

Günümüzdə hələ də bu üsullardan istifadə olunması çox sevindirici haldır. Xalq təbabəti üsulu, təbii tərkibli, ev şəraitində hazırlanan bu məhlullardan istifadənin düzgün və müəyyən qaydada qəbulu çox mühümdür. Çünki hər bir halda qədərindən artıq qəbul edilən zaman insan orqanizmi üçün təhlükə doğura bilər.

Keçmişdən bu günümüzə gəlib çatan bu bitki tərkibli araqların hazırlanma qaydası xalq təbabəti nümunəsi, maddi mədəniyyətimiz kimi qorunub saxlanmalı və gələcək nəsillərə ötürülməlidir. Onların istehsalının, ixracının artırılması brend məhsul kimi yurdumuza şöhrət qazandırar, iqtisadi cəhətdən də gəlirli ola bilər.

**Sürəyya QƏDİMƏLİYEVA**

### İtmişdir

Babək rayonunun Yarımca kəndində yaşamış Hümbətov Cəfər Əli oğlunun adına olan 30.04.2014-cü il tarixli MH-0035940 seriya nömrəli çıxarış və 103013004829-10301 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Əliyev Cavid Aşur oğlunun adına olan SQ-0024891 seriya nömrəli gizirin hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 485